**UOT 1 (091)** **(səh. 113-121)**

# QASIM BƏY ZAKİRİN İCTİMAİ-SİYASİ BAXIŞLARI

**Firuzə Nuru qızı Əliyeva**
f.ü.f.d., dosent
Xalq gərək daim öz kökünü xatırlasın
firuza.eko@gmail.com

**Xülasə.** Məqalədə Qasım bəy Zakirin yaşayıb yaratdığı dövr, ədəbi fəaliyyəti və bu dövrdə Rus-İran müharibəsi,şairin bu müharibədə iştirakı işıqlandırılmışdır. Sözsüz ki, bütün bu hadisələr şairin yaradıcılığına öz təsirini göstərmişdir. Məqalədə şairin zəhmətkeş xalqa olan dərin məhəbbəti, ağır sürgün illərinin şerlərində ifadə olunması öz əksini tapmışdır.
**Açar sözlər:** qoşmalar, atalar sözləri, mədəniyyət, lirika, satira, klassik.

# PUBLIC AND POLITICAL VIEWS OF GASIM BEY ZAKIR

**Firuza Nuru gizi Aliyeva**
doctor of philosophy in philosophy
firuza.eko@gmail.com

**Abstrakt.** The article highlights the period of Zakir's life and work, his literary activity and the Russian-Iranian war during this period, as well as the poet's participation in this war. Of course, all these events had an impact on the poet's work. The article also reflects the poet's deep love for the working people, expressed in poems of the years of hard exile.
**Key words:** adverbs, proverbs, culture, lyrics, satire, classics.

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ ГАСЫМ-БЕКА ЗАКИРА

**Фируза Нуру гызы Алиева**
доктор философии по философии, доцент
firuza.eko@gmail.com

**Аннотация.** В статье освещается период жизни и творчества Гасым-Бека Закира, его литературная деятельность а также участие поэта в русско-иранской войне. Само собой разумеется, что все эти события оказали большое влияние на творчество поэта. В статье также отражена глубокая любовь поэта к трудящемуся народу, выраженная в стихах, написанных в тяжелые годы ссылки.
**Ключевые слова:** наречия, пословицы, культура, лирика, сатира, классика.

## Giriş

Qasım bəy Zakir Azərbaycan ədəbiyyatı tarixində realizmin görkəmli nümayəndəsi, maarifçi, realist satiranın banisidir. Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələ təşkil edən Zakir satiraları feodalizm cəmiyyətinin qüsurlarını aşkara çıxaan, qamçılayan, zəhmətkeş xalqın hüquqlarını müdafiə edən sənət əsərləridir. Zakir klassik şərq ədəbiyyatında ən yaxşı cəhətlərini özünəməxsus satirik və lirik üslubda davam və inkişaf etdirərək qüdrətli söz ustası kimi tarixə düşmüşdür. Q.Za-

kir Azərbaycan bədii dilini yeni pilləyə qaldıraraq məzmunca dolğun formaca bitkin satirik şeirləri, qoşmaları, gəraylıarı ilə dövrünün şairlərindən fərqlənmişdir. Heç təsadüfi deyildir ki, M.F. Axundov, F.Köçərli, Ə.Haqverdiyev, S.Vurğun kimi sənətkarlar Azərbaycan dilinin incəliyindən, gözəlliyindən danışarkən Qasım bəy Zakirin adını dönə-dönə çəkmişlər.

Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. Qasım bəy Zakirin uşaqlıq, yeniyetməlik və gənclik illəri Şuşanın günü-gündən çiçəklənməsi, bir ticarət şəhəri kimi böyüməsi dövrünə təsadüf edir. O uşaq ikən mollaxanada oxumuş, fars, ərəb dillərini öyrənmiş, şərq klassik ədəbiyyatı nümunələri ilə tanış olmuşdur. Qasım bəyin uşaqlıq və ilk cavanlıq çağlarında bir sıra ciddi tarixi hadisələr baş vermişdi ki, bu hadisələr şairin yaradıcılığında, dünyagörşündə dərin izlər buraxmışdır. Belə ki, XVIII əsrin son illərində Azərbaycan xanlıqları üç dövlətin- Rusiya, İran və Türkiyənin əhatəsində idi. Bu dövrdə siyasi vəziyyət elə idi ki, Azərbaycan xanlıqları, o cümlədən ən qüdrətli xanlıqlardan sayılan Qarabağ və Quba xanlıqları sərbəst yaşamaq, sərbəst dxili və xarici siyasət aparmaq iqtidarına malik deyildilər. XVIII əsrin son rübündə İran və Türkiyə istər iqtisadi, istərsə də siyasi cəhətdən böhran dövrü keçirirdilər. XVIII əsrin birinci yarısında Azərbaycanın əsas hissəsi İran və Türkiyə arasında bölünmüşdü. Xəzər dənizinin ətrafları isə çar Rusiyası tərəfindən işğal eilmişdi. Rus təmsilçisi İ.A. Krılovun sözləri ilə desək, sənin təqsirin quzu olmağındadır, mütləq canavara yem olmalısan. Bəli, Azərbaycan xanlıqları arasında feodal-patriarxal çəkişmələr o qədər davam etdi ki, Çar Rusiyası onların zəif nöqtələrindən istifadə edərək "parçala hökm sür" siyasətini həyata keçirməyə nail oldu. Xanlıqlar arasında birlik olmadığına görə onlar tez bir zamanda əsarət altına düşdülər. Bütün bu hadisələr Qasım bəy Zakirin yaradıcılığına güclü təsir göstərmişdir.

Ağa Məhəmməd şah Qacarın Şuşa qalasına hücumu,şəhərin dağıdılması, əhalinin Qacara qarşı vuruşmaları, Vaqifin oğlu ilə cıdır düzündə Məhəmməd bəy Cavanşir tərəfindən qətlə yetirilməsi Qasım bəy Zakirin nifrət və qəzəbinə səbəb olmuşdu.

Qasım bəy Zakir cavan yaşlarında Qafqaz müsəlman könüllü süvari dəstəsində olmuş, 1806-1813, 1826-1828-ci illər Rusiya-İran müharibəsində iştirak etmiş döyüşlərdə fərqləndiyinə görə bir sıra görkəmli şəxslərlə, o cümlədən İsmayıl bəy Qutqaşınlı, Mirzə Adıgözəl bəy, Mirzə Camalla bərabər çarın 1828-ci il 15 mart tarixli fərmanına görə gümüş medalla təltif olunmuşdur. Qasım bəy Zakir 1826-cı ildə Rus-İran müharibəsi zamanı Abbas Mirzənin qoşunlarına qarşı ayrı-ayrı generalların ordusunda vuruşması barədə başqa bir sənəddə yazılır: "Qasım bəy Əli oğlu Cavanşir 1826-cı ildə Araz çayının o tayında knyaz Madatov, knyaz Çelyabinski və knyaz Abxazovun komandanlığı altında iranlılara qarşı ekspedisiyasında olmuşdur. Şair müharibələr zamanı yurd-yuvasını, doğma torpaqlarını tərk edən əməkçi kəndlilərin öz ata-baba yerlərinə qayıtmasına çalışmışdır. Şairin 1828-ci il 24 aprel tarixli, müsəlman əyalətlərinin hərbiyyə rəisi general-mayor Abxazovun adına yazdığı ərizədə deyilirdi. "1827-ci ildə Abbas Mirzənin qoşunları məğlubiyyətə uğradıqdan sonra Mehdiqulu xanın yanına gedərək bir gecə onun yanında oldum, onunla söhbətdən sonra Araz çayının o tayında, on iki ağaclıq məsafədə olan Coraqlı camaatından 500-ə yaxın evi Arazın bu tayına köçürüb Tuğ kəndində yerləşdirdim". (Gürcüstan SSR Mərkəzi dövlət tarixi arxivi, fond 2, iş №2197)

### Abbas Mirzə haqqında

Yeri gəlmişkən bir haşiyəyə çıxmaq istərdik. Rus generalları Sisianov, Tormosov, Qudooviç, Aristov və Paskeviçin saysız-hesabsız hücumlarına qarşı yalnız Abbas Mirzənin və onun sərkərdələrinin az saylı tüfəngçiləri müqavimət göstərirdilər. Bələki, ən qudus rus generalı, Puşkinin Şəninə nəğmələr qoşduğu Kotlyarevski 1810-cu ildə Lənkəran qalası uğrunda mübarizədə yerli igidlərlə bərabər 20 min Azərbaycan Türk əsgərinin canını qəltan etdi. Ruslardan 2500 nəfəri qırıldı. Kotlyarevski başından yaralandı və ömürlük iflic oldu. Qüvvələrin qeyri-bərabər olmasına, baxmayaraq Abbas Mirzənin rus ordusu üzərindəki qələbəsi tarixə düşdü. (Əlisa Nicat, Dünya sərkərdələri, Ba-

kı, 2011 s.169) Rus çarı I Nikolay təcrübəli və hiyləgər Paskeviçi saysız hesabsız ordularla İranın üstünə göndərdi və işğalçılar Təbrizə qədər gəlib çıxanda Abbas Mirzənin inadı qırıldı, atasına (Şah Fətəliyə) yalvarıb kömək istəməsinə, baxmayaraq heç bir maddi yardım ola bilmədi və o, atasının təkidi ilə ilk dəfə sülh danışıqlarına razı oldu. Beləliklə, 1828-ci ildə Azərbaycan türklərinin ən qara günü Türkmənçay müqaviləsi imzalandı. Bununla da Abbas Mirzə quzey Azərbaycanını qurban verib Güney Azərbaycanını xilas etdi. Deyilənə görə həmin gün böyük sərkərdə oturub hönkür-hönkür ağlayırmış.

Abbas Mirzə 25 il gecə-gündüz bilmədən Azərbaycanı rus işğalından qorumaq üçün vuruşmuşdur. Abbas Mirzə bu hadisədən sonra aldığı zərbədən çox yaşaya bilməmiş və 1833-cü ildə 46 yaşında vəfat etmişdir.

Çarizmin işğalçılıq, müstəmləkəçilik siyasəti siyasəti Azərbaycanda iqtisadi-ictimai həyatın, sərbəst geniş inkişafına mane olurdu. Çar məmurlarının həddini aşmış özbaşınalığı, vəzifələrindən sui-istifadə etmələri, rüşvətxorluğa qurşanmaları, kəndlilərlə istədikləri kimi vəhşicəsinə rəftarı, eləcə də çar məmurlarına tabe olan əlaltıların azğınlığı kəndli və sənətkarların səbir kasasını doldurmuşdu. Bu dözlüməz həyat tərzi ayrı-ayrı yerlərdə çarizm əsarətinə qarşı üsyanların qalxmasına səbəb oldu. Çarizmin bu zülmünə qarşı 1830-cu ildə Balakən, 1831-ci ildə Talış, 1837-ci ildə Quba, 1838-ci ildə Şəkidə üsyanlar baş verdi. Üsyanların yatırılmasında çar qoşunu ilə bərabər könüllü polis dəstələri də iştirak edirdi. Onların arasında Qarabağ atlıları da var idi. Zakir də bu atlıların sırasında vuruşurdu. Amma nahaq yerə. O, elə başa düşürdü ki, yer üzərində padişah böyükdür. Onun üzünə ağ olmaq günahdır. Şair hələ güllənin kimə atıldığını dərk etməkdə çətinlik çəkirdi.

Xain olan bu dövlət-aliyə
Dağılıb hər yerdə tarimar oldu

Azərbaycan tarixi kitabında yazılmışdı: "Carlılar və vilayətin digər sakinləri Qafqaz dağlılarının başçılarından biri olan Həmzət bəylə əlaqə yaratdılar. 1830-cu il sentyabrın 12-də Həmzət bəyin 2 min nəfərlik dəstəsi Böyük Qafqaz dağlarını aşaraq, vilayətin ərazisinə daxil oldu. Car əhalisi üsyan qaldıraraq dağıstanlılarla birləşdi. Yeni Zaqatalada olan rus qarnizonunun başqa qoşun hissələri ilə əlaqəsi kəsildi. Oktyabrın 15-də çar qoşunları ilə üsyançılar arasında vuruşma baş verdi, bu döyüşdə dağıstanlılar və çarlılar qalib gəldilər. Noyabrın 14-də rus qoşunları Cara yaxınlaşdı və əhalinin müqəvimət göstərməsinə baxmayaraq Carı tutdular və üsyançılara amansızcasına divan tutdular. Car və vilayətin bir sıra yaşayış məntəqələri dağıdıldı." (Azərbaycan tarixi. Üç cilddə, ikinci cild Bakı, 1964, səh.84)

Qasım bəy Zakir Carda üsyançılarla çar qoşunu arasında gedən döyüşün iştirakçısı kimi. "Car müqəddəməsi" şeirini yazıb dostu şair Baba bəy Şakirə göndərmişdir. Şair şeirində yazır ki, döyüşün ilk mərhələsində üsyançılara qarşı vuruşan atlı dəstələri çıxılmaz, məğlub vəziyyətə düşürlər: Şair bunu şeirində belə təsvir edir.

Sağlığında ümidimiz yox idi,
Hər saxladı, yaradanı yar oldu.

Sonra şair yazır ki, üsyana başçılıq edən Həmzət bəylə Şeyx qətiyyətsizlik göstərib rus generalları ilə sazişə girirlər:

İtaətə gəldi Şeyx ilə Həmzət
Şükr olsun Allaha, tezbazar oldu.

Şair "Car müqəddiməsi" şeirində üsyançılara amansızcasına divan tutan rus zabitlərini tənqid edərək, anların kəndləri talan etməsini kəskin tənqid edirdi.

Çar qoşunları ilə birlikdə xalqı soyub, talayan alçaq yolla varlanmaq istəyən bəylərin tənqidi şairin yaradıcılığının əsas qayəsini təşkil edirdi.Q.Zakir çarizm işğalından sonra ictimai-sosial ədalətsizliklətdən bəhs edərək yazırdı:

Xandəmirov çaldı-çapdı mahalı
O ki, özün tutub keçəl qurumsaq.

Zakir yerli polis rəislərinin soyğunçuluğunu kəndləri dağıdaraq əməkçi insanların var-yoxlarını ərindən almalarını "jarqon" sözlərlə tənqid edirdi. Tarxan Mourov, Xandəmirov kimi tiplər belə soyğunçulardan biridir.

Qasım bəy Zakirə Xurşudbanu Natəvanın atası Mehdiqulu xan tərəfindən Xındırıstan kəndi bağışlanmışdı. Şair Xındırıstan kəndində sərbəst bir həyat keçirərək, öz əməyi ilə yaşamışdır. Cəmisi iyirmi evdən ibarət olan bu kəndin bir az əkin yeri, bir az da üzüm bağları var idi. Xındırıstan Qarabağın ən kasıb kəndlərindən biri olduğuna görə illik gəliri çox az cəmisi 450 manata qədər gümüş pul idi.

Lakin çox keçmədən çar məmurları Xındırıstan kəndini yerlə-yeksan etmiş, əkin və biçənəklərini dağıtmışdılar. Əhalinin vəziyyəti çox pisləşmiş, şairin buradan aldığı gəliri vermirlər. Şairə müavinət də vermirlər. Bir neçə ildən sonra şairə müavinət göndərilsə də artıq şair dünyasını dəyişmiş olur.

Qasım bəy Zakir Qarabağı talan edən çar məmurların yerli darğaları şeiri ilə ifşa edir:

Xəbər alsan bu vilanın əhvalın,
Bir özgədir keyfiyyəti Qarabağ.
Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?

Zərgər Drağarda aləm-aşikar,
Bir ucdan oğurlar, bir ucdan satar.
Vay odur sahibi at başı tutar,
Yüz yerdən tökülür üstünə çomaq.

Qarabağda nə day qaldı, nə dana,
Bu gün-sabah hərə qaçar bir yana.
Tənbeh etmək ilə Xındırıstana,
Xub saldı ölkəni nizama qaçaq.

Qarabağın əksər bəyləri gecə-gündüz vaxtlarını eyş-işrətlə keçirib, rəiyyətin, rəncbərin hesabına boyunlarını yoğunladıb qızardırdı, onları yedirdib, doyduran, geydirib qudurdan zəhmətkeş xalqa ikrah hissilə yanaşırdı, əkinçi ilə bir süfrədə çörək yeməyi, bir məclisdə gülüb-danışmağı ar bilib, alçlaqlıq sayırdılar. Zakir isə bəy nəslindən olmasına, baxmayaraq rəiyyətlə birlikdə yer əkir, bağ salır qoyun qırxır, bir süfrədə çörək yeyir, bəzən də onların dərdlərinə şərik olurdu. Zakirin vəziyyətlə dilbir olması, bəzi məsələlərdə onları ayıq salması başqa yerli bəylərin mənafeyinə "şəstinə" toxunurdu. Şair əməkçi kəndlilərlə, torpaq, su sahibləri arasındakı toqquşmalarda özü də iştirak edirdi. Belə deyirlər ki, bir gün Göytəpə kəndinin insafsız bəylərindən biri kəhrizi bağlayır və kəndlilərə su buraxmır. Kəndlilər şairin yanına gəlib deyirlər ki, bəyin adamları suyun başında durub, suyu bağlayıblar. Bizə kömək elə, yoxsa əkinimiz tərk olub gedir. Zakir onlara deyir ki, qorxmayın, hücum çəkib bəyin adamlarını qovun. Kəndlilər də o deyən kimi edirlər. Bəy adamları ilə kəndlilər arasında dava düşür. Amma bəy adamları bir şey edə bilmirlər. Qasım bəy Zakir həmin bu məsələyə

"Tısbağa, qarğa, kəsəyən, ahu" timsalında toxunmuşdur. Şair bu tımsalında əzilənlərin birliyini nümayiş etdirmişdir. Şair göstərmək istəyir ki, qoluzorlulara qalib gəlmək üçün fəqir və zəiflər birləşməlidirlər. Eyni zamanda Zakir təmsil vasitəsi ilə dostluqda vəfalı, sədaqətli olmağı tövsiyyə etməklə bərabər, əzab-əziyyət içərisində yaşayan insanlar arasında mərd, igid adamlardan da az olmadığını göstərir:

Kəsəyəni qarğa alıb dalına,
Olan gücün verib pəri balına.
Tanrı o yoldaşa eyləsin qəzəb!
Kim, dari-dünyada ola xüdtələb.

Təmsilin qəhrəmanları aciz heyvan və quşlardır: tısbağa, kəsəyən, ahu və qarğa. Onlar tora düşmüş ahunu xilas etmək üçün birlikdə tədbir görüb onu xilas edirlər. Şair demək istəyir ki, güc birlikdədir.

Şair Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə olaraq təmsildən bir janr kimi istifadə edərək, onu həyatdakı hadisələrin tələblərinə uyğun olaraq vermişdir.

Yuxarıda qeyd etdiyimiz kimi Zakirin yaradıcılığında təmsil xüsusi yer tutur. Doğma xalqına məhəbbətlə bağlı olan şair təmsillərində ictimai haqsızlıqlara satirik və tənqidi münasibət bəsləyərək, zəhmətkeş xalqın mənafeyini, adət-ənənələrini müdafiə etmişdir. şairin altı təmsili vardır. Bunlardan "Dəvə və eşşək", "Qurd, çaqqal və şir" , "Tülkü və şir" , "İlan, dəvə və tısbağa" , "Tülkü və qurd" , "Tısbağa, qarğa, kəsəyən və ahu".

Rus ədəbiyyatının görkəmli təmsilçisi İ.A.Krılov əgər rus həyatının eybəcərliklərini, çar üsulidarəsinin despot təbiətini, təhkimçiliyin iyrəncliyini ifşa edirsə, Zakir də öz təmsillərində Azərbaycan xalqının adət-ənənələrini, yaşayış tərzini əks etdirmişdir. Şair təmsillərində zülmkar, qan içən hakimləri tənqid edərək özünün zülmkarlara, acizlərə münasibətini bildirmişdir. Şair təmsillərində həmçinin yoldaşlıqda vəfalı olmağı, ağıllı nəsihətlərə əməl etməyi, həyatda doğru olmağı və s. kimi gözəl insani keyfiyyətləri təbliğ edir. Zakir təmsillərinin başlıca qayəsini ictimai haqsızlıqlar, hakim təbəqələrin özbaşınalığı, qoluzorluların gücsüzlər üzərində ağalığı, onların yırtıcı simalarının tənqidi təşkil edir.

Q.Zakirin əxlaqi-tərbiyəvi didaktik xarakterli təmsillərində bir tərəfdən yoldaşlıqda vəfalı olmağı, ağıllı nəsihətlərə əməl etməyi, doğruluqla dolanmaq kimi insani xasiyyətlər təbliğ olunursa, digər tərəfdən isə insanlar arasındakı murdar xasiyyətlər: xəbislik, yaltaqlıq, xəyanət, hiylə, yalançılıq kəskin tənqid atəşinə tutulur. ("İlan, dəvə və tısbağa", "Dəvə və eşşək" , "Tülkü və qurd" buna misal olar).

Təmsilləri kimi mənzum hekayələri də Zakirin yaradıcılığının ayrılmaz bir hissəsidir. Şair cəmiyyətdə sosial ədalətsizliyi açıq dildə deyə bilmədiklərini hekayə və təmsilləri vasitəsi ilə oxuculara çatdırır. Mənzum hekayələrində şair feodal əxlaq normalarını, din nümayəndələrinin allah, şəriət adından istifadə edərək, avam xalqın başına gətirdikləri oyunları, onların pozğun hərəkətlərini tənqid və ifşa edərək yazırdı:

Nəhayət, bir parə mollayi-biar,
Düşən yerdə dinin dünyaya satar.

Burada şair xalqın mənəvi-dini tərbiyəsi ilə məşğul olan mollaları tənqid edir və onları din adından istifadə edib, hiylələr işlədən dələduzlar kimi tənqid etmişdir.

"Əxlaqsız qazi" hekayəsində şair qazilərin əxlaqsızlığı haqqında danışır. Şair yazır ki, qazi və onun tayları, səhərdən gecəyarıya qədər əkində-biçində olan zəhmətkeş xalqın başına min cür oyun-

lar açır, iyrənc əməlli müftəxorların törətdikləri cianyətlər həddi-hüdudunu aşmışdır. Şair onları tənqid edərək deyir:

Gərək bu aləmdən eyləmək həzər,
Öz yerində deyil çünki xeyru-şər.

Q. Zakirin satiraları indiki dövrümüzlə çox gözəl səsləşir. Belə ki, Zakirin tənqid hədəfi olan xalqın, dövlətin malını qarət edən qazilər indiki dövrümüzdəki məmurlara aiddir.

Şair əgər "Əxlaqsız qazi" hekayəsində qazinin çıxardığı oyunları açıb ifşa edirsə, "Həyasız dərviş" , "Dərviş ilə qız" hekayələrində allah peyğəmbər, Əli adı ilə soyğunçuuq edən, bərkə düşəndə isə dilənçilik edən dərvişlərin zəhmətkeş xalqa, avam qadınlara münasibətindəki saxtakarlığı tənqid atəşinə tutur. Şairin fikrincə, ölkədə oğurluğun, yol kəsməyin artmasının əsas səbəblərindən biri də əməyə, əkinçiliyə xor baxan, tüfeyli həyat keçirməyə alışan adamların gündən-günə çoxalmasıdır.

Qasım bəy Zakir ailə məsələlərinə də toxunaraq, öz şeirlərində qoca kişinin cavan qızla evlənməsinə nifrətlə baxır. Şair yazır:

Bu hünərlər gəlməz səksən yaşlıdan,
Əli rişəlidən, titrək başlıdan.

Q. Zakir dövrünün ailə-məişət problemlərinə,insanlar arasında sosial münasibətlərin qeyri-adekvat olmasına,qadınların hüquqsuzluğuna biganə qalmayıb satiralarında cavan qadınlara "meyl göstərən" qocanın gülünc vəziyyətə düşdüyünü göstərərək ona acı qəhqəhələrlə gülür və nifrət edir. O, qoca kişilərin qocalıqla əlaqədar olan sifətlərini, fikirlərini əsaslandırmaq üçün sadalayır və bu nəticəyə gəlir ki, hərə öz tayını tapmalıdır. Nəhayət, şair öz fikrini yekunlaşdıraraq yazır:

Qərəz ki, qələtdir bir mərdi-köhnə,
Gedib meyl eyləyə cahil zənə.
Onun təmənnasl onda dözülməz,
Şamü səhər qiylü qalı üzülməz.
Sevgi-sevgisinə bərabər gərək

Şair göstərir ki, sevgi hər iki tərəfdən bərabər olmalıdır. əgər belə bir sevgi yoxdursa, onda ailə quranların günləri "ahu-zarla" keçəcəkdir. Şair yazır ki, eybi dolu, başı boş,, "beli şallı" hacılar, məşədilər çirkn işlərlə məşğuldurlar. Onlar özlərindən yaşca xeyli balaca qızları bədbəxt edirlər.

Qeyd etmək lazımdır ki, hazırkı dövrümüzdə də (XXI əsrdə) az yaşılı qızların özlərindən qat-qat böyük kişilərə verilmsi dəb şəklini almışdır. Bu da ki, gələcəkdə həmin ailələrdə böyük fəsadların yaranmasına səbəb olur.

Qadınların qul vəziyyətini, çəkdikləri əzab və işgəncələri görən şair yazırdı:

Zəhər qatdılar aşıma,
Bəlalar gəldi başıma.
Baxmadılar göz yaşıma,
Satdılar kaftara məni,
Ağ yal canavara məni.

Q. Zakir ictimai mühitdəki qanunsuzluğun və hərc-mərcliyin əksəriyyətinin varlı ailələrdə baş verdiyini göstərmişdir. Ailədə öz yaşayış tərzini qura bilməyən bir şəxs cəmiyyət üçün heç bir xeyir iş görə bilməz. Zakir bəy nəslinə mənsub olmasına baxmayaraq, əməkçi xalqla daha yaxın olmuş-

dur. Bütün bunlar onun hekayələrindəki sadə camaata olan münasibətində özünü biruzə verir. Şairin arzu və istəklərini əks etdirən hekayələrdə saf, təmiz məhəbbət tərənnüm edilir. "Məlikzadə və Şahsənəm" hekayəsi romantik məhəbbət haqqında olan əfsanələrdən biridir. Burada Fizulinin "Leyli və Məcnun" poemasında olduğu kimi bir-birini alovlu məhəbbətlə sevən iki gəncin sevgisinin müqəddəs bir hiss olmasından bəhs edilir. Şair Fizuliyə nəzərən belə yazır:

Xüzeyi-eşqin çoxdur üsulu,
Bu barədə həp deyibdir Füzuli.
Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri cahandır.

Burada Füzulinin təsiri açıq şəkildə özünü göstərir. Bildiyimiz kimi Füzuli də, Nizami də öz əsərlərində saf, təmiz məhəbbəti tərənnüm edərək, onu var dövlətə qarşı qoymuşdur. Onların fikrincə o, insanda ki, ağıl və səmimi məhəbbət vardır, o, ən kamil adamdır. Var-dövlət, şan-şöhrət ağıla və saf məhəbbətə tabe olmalıdır. Xosrov və Şirin əsərində, məhz Şirinin məhəbbəti Xosrovu ədalətli hökmdar dərəcəsinə qaldırır. Nizami də, Füzuli də olduğu kimi Zakirdə də məhəbbət insanı yüksəldir, ona mənəvi qida verir. Zakirin liik yaradıcılığında qoşma və gəraylıları xüsusi yer tutur. Şairin xalq üslubunda yazdığı qoşmalarının ən böyük xüsusiyyəti onlarda nikbin ruhun güclü olmasıdır. Bu da ki, şairin sifahi xalq ədəbiyyatı ilə sıx bağlı olmasındadır. Şifahi xalq yaradıcılığını, xalq aşıq şeiri, xalq həyat tərzi, hikmətamiz atalar sözləri və məsələlər şairin şeirlərinin əsas mənbələridir.

Q.Zakirin qoşmaları içərisində "Durnalar" şeiri xüsusi diqqəti cəlb edir.Şair "Durnalar" şeirini Bakıya sürgün edildikdən sonra yazmışdır.O, kəndi dağılıb viran qoyulduqdan sonra bütün ailə və qohum-əqrəbası ilə dustaq kimi doğma el-obasından didərgin salınır.Çar hökümıəti Q.Zakirin oğlu və qardaşı oğlunu Sibirə,özünü Bakıya sürgün etmiş,ailəsini isə Şuşada saxlatdırmışdır.Doğma yurdundan ayrı salınan şair başına gətirilən zülmü,dustaq həyatını,iztirablarını,dünyanın haqsızlıqlarını durnalara açıb söyləyir.

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatında durnalar mövzusuna Vidadi və Vaqif də müraciət etmişlər. Bu şeirlərin hamısına vətənə, elinə, ailəsinə, sevgilisinə həsrət motivləri üstünlük təşkil edir. Vidadinin "Durnalar" qoşmasında aşiqin kədərli, qəmli olması təsvir olunur. Buna görə də uca göy üzərində uzaqlara səfər edən durna qatarının nəğməsi şairin ruhunda həzin bir kədər, qəriblik əhval-ruhiyyəsi yaradır və o durnalara xitabən yazır:

Qərbib-qərib,qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana durnalar?

Bildiyiniz kimi Vidadinin bədii yaradıcılığında dövranın gərdişindən, zəmanədən şikayət motivləri üstünlük təşkil edir. Onun "Durnalar" qoşmasındakı "Qərib-qərib, qəmgin-qəmgin ötərsiz" , "Siz düşərsiz pərişana" , "Bağrım olur şana-şana" , "Vidadi xəstədən Bağdad elinə" deyimləri bununla əlaqədardır.

Vaqifin "Durnaları" isə öz nikbin əhvali-ruhiyyəsi ilə seçilir. Bu şairin yaradıcılığındakı ruh yüksəkliyi və həyata bağlılığı ilə səciyyələnir. Qoşmada deyilir ki, aşıq xeyli vaxtdır ki, bir ala gözlünün sorağındadır. Onun fərağında pərvanə kimi alışıb yanır və onu görmək həsrəti ilə yaşayır. Şair deyir:

Bir saat havada qanad saxlayın,
Nizam ilə gedən qoşa durnalar.
Qatarlanıb nə diyardan gəlirsiz,
Qaqqıldaşa-qaqqıldaşa durnalar?

Hər iki qoşmada "zaman" ,"saat" sinoonimini nəzərə almasaq, demək olar ki, eynidir.Zakir durnalardan heç bir şey istəmir, o sadəcə olaraq, zülmdən, qürbətdən azad olaraq, öz el-obasına qayıtmaq istəyirr. Vidadi yazır:

Əzəl başdan Bəsrə, Bağdad eliniz,
Vidadi xəstədən Bağdad elinə,
Siz yetirin bir nişanə durnalar
Sizə muştaq durur bağdad elləri.

Zakirin durnaları hər iki şairin durnalarından fərqlənir. Beləki, şair Bakıdakı dustaq həyatın, ağır və məşəqqətli günlərindən danışaraq şair durnalara müraciətlə cəmiyyətdəki hərc-mərcliyə işarə edərək durnalardan imdad istəyir. Şair deyir:

Laçın yatağıdır bizim məkanlar,
Yavaş-yavaş gedin səsiniz anlar.
Qorxuram toxuna ötən zamanlar,
Sürbəniz dağıla çaşa durnalar.

Şairin yaradıcılığında qoşma, təsniflərlə yanaşı gəraylıları da xüsusi yer tutur. Bu mənada "Keçdi növbəti zimistan" misrası ilə başlayan gəraylı şairin canlı təbiətin tərənnümnə həsr olunan ən gözəl şeirlərindəndir.

Keçdi növbəti-zimistan,
Yenə fəsli-bahar oldu.
Əndəlibi-binəvanın,
Sənəti ahu-zar oldu.
Yasəməni gülü lalə,
Bir çəmənə qurub halə.
Ərğüvan tutub piyalə,
Nərgiz içib xumar oldu.

Şeirdə qışın getməsi, aləmə həyat verən baharın gəlişi təsvir olunur. Şair qışla yayı qarşılaşdırır, bahar fəslində təbiətin və canlıların eşqə düşdüyünü tərənnüm edir.

## Nəticə

Beləliklə, qeyd etmək lazımdır ki, XIX əsrin realist Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri kimi şöhrət qazanan Qasım bəy Zakirin ədəbi irsi xalqımızın mədəniyyəti xəzinəsinə həmişəlik daxil olmuşdur.

Q. Zakirin satiraları özündən sonra gələn görkəmli satirik şairlərimizdən olan Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabirin və digərlərinin satirik şeirlərinin ideya mənbəyi olmuş, Azərbaycan klassik şeirinin məzmununun və formasının daha da zənginləşməsində xalqla təmasda olmasında böyük rol oynamışdır.

**Ədəbiyyat**


1. Qasım Bəy Zakir. Əsərləri. Azərb. EA, B., 1964
2. Qasım bəy Zakir. Durnalar. Azərnəşr, 1963
3. Məmmədov K.D. Qasım bəy Zakir. B., Gənclik, 1985
4. Gürcüstan SSR Mərkəzi dövlət tarixi arxivi fondu, iş № 2197
5. Əlisa Nicat Dünya sərkərdələri. B., 2011



**Rəyçi:** **fəl.üzrə fəl. dok. Səbirə İsgəndərova**

**Göndərilib: 18.05.2022** **Qəbul edilib: 22.06.2022**